Salam əziz insan, adım Ümiddir və Bakıdanam. Necəsən? Düşünürəm ki, səndə hər şey qaydasındadır.

Mənim sənə bu məktubu yazmaqda məqsədim səni sülhə səsləməkdir. Bildiyin kimi, illərdir hər ikimizin yaşadığı dövlətlər müharibə şəraitindədir. Hər iki dövlət itkilər vermişdir. Sənə bir sual verirəm, bu qədər itki, bu qədər ölüm nəyə lazım idi ki? Bu dünya bütün bəşəriyyət üçündür, niyə insanlar bu dünyada qardaşca deyil də, düşməncə yaşamalıdır ki? Həyat çox qısadır əziz qonşu, bir müddətdən sonra heç biz də bu dünyada olmayacağıq. Mən düşünürəm ki, bir–birimizlə bu soyuq münasibəti bir kənara qoyub, bütün dünyaya sülh və əmin–amanlıq mesajı verməliyik. Bu dünya hamımız üçündür, Napalyon, İskəndər, Sultan Süleyman kimi dahi şəxsiyyətlər bu dünyanı tutub qala bilmədi. Biz nə üçün bir qarış torpaq üçün bir–birimizlə düşmən olmalıyıq ki? İnsanlığı, məncə, sülh xilas edəcək.

Mən düşünürəm ki, sən də mənim kimi eyni fikri dəstəkləyirsən. Baxmayaraq ki biz ayrı millət və mədəniyyətləri özümüzdə əks etdiririk, məncə, düşünürəm ki, biz ikimiz də sülhün yeganə həll yolu olduğunu anlayırıq. Düzdür, illərdir bizə sizin, sizə də bizim düşmən olduğumuz deyilir. Amma mən belə düşünürəm ki, artıq biz bu düşüncələri qırmalıyıq. Mən ömrümdə sadəcə 1 dəfə erməni görmüşəm. O zaman Rumıniyada idim, çox onunla söhbət etmək şansım olmadı. İstəyərdim bir gün sənlə söhbət edək. Nəyin necə olduğunu anlayaq. Sənin bizə qarşı münasibətini öyrənməyi çox istəyərəm. Əgər alınsa, düşünürəm ki, biz bu layihə çərçivəsində görüşəcəyik və uzun–uzun söhbət etməyə vaxtımız olacaq. Sənə bu məktubun çatacağı günü görəcəyim üçün çox səbirsizlənirəm. Düşünürəm ki, hər ikimiz üçün də və nəinki hər ikimiz üçün, hər iki xalq üçün hər şey öz həllini tapar.

Hörmətlə, Azərbaycanlı sülhsevər.